**Tuncər Cücənoğlu**

# DALAN
# (ÇIKMAZ SOKAK)

*(2 hissəli pyes)*

***Abdi İpəkçi'nin xatirəsinə...***

***Tərcümə edən: ELVİN NURİ***


*Tuncer Cücenoğlu*
*www.tuncercucenoglu.com*
*cucenoglutuncer@gmail.com*


Ankara – 1980

*İ ş t i r a k e d i r l ə r :*

**CELİKA – 30 yaşında;**

**SPANOS – 45 yaşında;**

**LİLİKA – 20 yaşında;**

**Səhnə tərtibatı :** ***Böyük bir salon. Sağ tərəfdə salonun giriş qapısı. Sol tərəfdə görünməyən yataq otağıdına açılan qapı. Qabaqda bütünlüklə pərdələri örtülmüş pəncərələr. Divan-kreslo dəsti, kitab rəfi, radio, maqnitafon, masa, qaz sobası, jurnal masası, telefon. Çarpayı kimi istifadə edilə biləcək bir divan.***

## BİRİNCİ HİSSƏ

***(Pərdə açılmamış kalonkalarla zala :)***

**Kişi səsi.** 21 Aprel 1967-ci ildə Yunanıstanda bir çevriliş oldu. Çevrilişi həyata keçirənlər Papadopulasdla yoldaşları idarəçiliyə qarışıblar. Parlament ləğv edilib. Bütün partiyalar bağlandı. Çevrilişçilər Milli Höküməti yaratdılar və ola biləcək bir müqaviməti dəf etmək və qarşı çıxanları qorxutmaq məqsədilə aralarında yazıçılar, sənətçilər, müəllimlər, vəkillər, jurnalistlər, həkimlər, zabitlər, sindiqatçılar, kəndlilər, fəhlələr və şagirdlər olan otuz min nəfəri həbs etdilər. Bir müddət sonra böyük əksəriyyəti günahsız hesab olunaraq, xəbərdarlıq edilən bu otuz min nəfər həbsdə olduqları müddətdə ağır təzyiqlərlə qarşılaşdılar və işgəncələrə məruz qaldılar.

*(Səliqəli və sərt ayaq səsləri yaxınlaşır, uzaqlaşır...)*

**Qadın səsi.** 7 il sonra... Afina... 1974...

*(Pərdə açılanda, zınqırov səsləri... Göy gurultusu... Celikanın kürəyi tamaşaçılara tərəfdir. Əlində bir silah var. Güllələrini yoxlayır, səsboğucu taxır. Gözləyir... Ayaq*

*səslərini eşidəndə, qapının yanına gəlib, bayıra qulaq asır. Qapı döyülür. Gözləyir. Yenidən döyülür...)*

**Lilika** *(səsi).* Mənəm, aç!..
**Celika** *(sürətlə qapını açır, Lilika içəri girir).* Gəldiniz?
**Lilika.** Aşağıdadır.
**Celika.** Necə?
**Lilika.** Bilmirəm.
**Celika.** Şübhələnmədi?
**Lilika.** Zənn eləmirəm.
**Celika.** Maşın?
**Lilika.** Öz maşınıdır.
**Celika.** Dövlət maşını ilə də gələ bilərdi.
**Lilika.** Mən məcbur elədim.
**Celika.** Yaxşı. Sürücülüyü öyrənməklə nə kimi yerli-yerində bir iş etdiyini indi başa düşdün?
**Lilika.** Başa düşdüm. Bir tərslik olmaz, elə deyilmi?
**Celika.** Niyə olsun?
**Lilika.** Elə-belə...
**Celika.** Narahatsan.
**Lilika.** Əsgərlər gəzirlər.
**Celika.** Hər gecə gəzirlər.
**Lilika.** Tədbir görürlər.
**Celika.** Nə tədbir?
**Lilika.** Nələrinsə qarşısını almaq istəyirlər.
**Celika.** Nələrin?
**Lilika.** Bilmirəm.
**Celika.** Boş-boş danışdığından xəbərin var? Elə bilirsən ki, bütün tədbirlər bizə görə görülüb?
**Lilika.** Heç nə fikirləşə bilmirəm... Eyni narahatlıqla yeməkxanada görüşəndə də qarşılaşdım... Hamı hər şeyi bilirmiş kimi davranırdı.
**Celika.** Hər şeyi?
**Lilika.** Onu bura gətirəcəyimizi.
**Celika.** İndi bu boş-boş sözlərin yeri deyil. De görüm, içib?
**Lilika.** İçib.
**Celika.** Nə qədər?
**Lilika.** İki qədəh. İmkan versəydim, hələ çox içəcəkdi.
**Celika.** Kaş, imkan verərdin.
**Lilika.** Maşın sürəcəyindən xəbərdar idim.

**Celika.** Doğrudan a... Bax, bu, xoşuma gəldi. Necə olsa, burada istədiyi qədər içəcək. Canı çıxana kimi! Aşağıda hələ nə qədər gözləyəcək?
**Lilika.** Beş dəqiqə demişəm. Pərdəni açıb, işığı yandıranda, gələcək.
**Celika.** Daha gəlsin.
**Lilika.** Bir az dayan. Əvvəlcə, mənə bu iş çox asan görünürdü...
**Celika.** Sonra?
**Lilika.** İş hərəkətə gələndə, asan olmadığını...
**Celika** *(susdurur).* Görürsən ki, hər şey yolunda gedir.
**Lilika.** Həmişə elə gedəcək?
**Celika.** Gedəcək... Qorxmağına bir səbəb yoxdur.
**Lilika.** Qorxu? Həll edə bilmirəm, Celika. Bu, qəribə bir duyğudur. İçimdə özümü ələ ala bilməyəcəyəm kimi bir həyəcan var.
**Celika.** Balaca Antiqona. Ay səni balaca Antiqona!.. Sən bacarıqlı teatr aktyorusan. Az qalmışdı ki, səni profisionallaşdırsınlar.
**Lilika.** O iş başqadır. Bura teatr səhnəsi deyil ki.
**Celika.** Deyil? *(Gülür)* Bax! Buradan yaxşı səhnə olar? Oynayacağımız tamaşa məlumdur... İştirakçılar: Celika, Lilika, Spanos... Gəl artıq başlayaq.
**Lilika.** Bir az... Bir az da gözləyək... *(Göy guruldayır. Sükut...)* Gəl, əl çəkək bu işdən.
**Celika.** Dəli olmusan?
**Lilika.** Pis şeylər olacaq.
**Celika.** Çox gecdir.
**Lilika.** Niyə?
**Celika.** Artıq hər şeyin axırına gəlmişik.
**Lilika.** Narahatam, qarşısını ala bilmirəm.
**Celika.** Tamaşaya çıxmamışdan əvvəl də qorxmuşdun. Axırda nə oldu? Ən çox alqış sənə gəldi. Yalandır?
**Lilika.** Aşağıya düşərəm. Deyərəm ki, bacım gəlib. Çıxıb gedər.
**Celika.** Bu qədər sadə, hə? Çıxıb gedər... Yeddi ildir həmişə bunu xəyal eləmişəm. Ən zərif detalına kimi hər şeyi planlaşdırmışam. Qarnımda bir körpə kimi böyütdüyüm intiqamımı doğulmamış ölümə verim? Elədiklərini cavabsız qoyum? O, çöldə əlini-qolunu sallayıb, gəzəcək, hə? Bu iş olacaq. Bu hesab veriləcək. Mənim üçün başqa heç bir çözüm yoxdur... Lilika... Sən mənim bacımsan... Sənə bir şey olmağını istəyərəm?
**Lilika.** İstəməzsən...
**Celika.** Eləysə, niyə narahatsan?.. Əsas odur, dediklərimi qorxmadan yerinə yetir. Edəcəyini tam et. Əgər istəmirsənsə, bu dəqiqə aşağıya düşüb, mühakimə olunmağımı belə, vecimə almayıb, onun beynini dağıdaram, vəssalam.
**Lilika.** Səni tutarlar.

**Celika.** Bəlkə də, o, mənim beynimi dağıdar... Amma yuxarı gətirsək, hər şey planlaşdırılmış kimi bitirəcək.
**Lilika.** Bəs, şübhələnsə? Bəs, burada nələrsə baş verdiyini başa düşərsə?
**Celika** *(silahı göstərir).* Bunun səsi çıxmır... Amma düşünmürəm ki, istifadə etmək lazım olacaq. Heç bir şey olmayacaq. Çünki hər şeyi ən zərif detalına qədər fikirləşmişik, həll etmişik. Dəfələrlə nəzərdən keçirmişik. Addım-addım... Mahir şahmatçı kimi, hər gedişin sonunda qarşıdan gələ biləcək həmləni hesablamışıq. Həllini, tədbirini tapmışıq. İndi pərdəni arala... Elektrik düyməsini baş və gözlə... Bura gələcək... Gözəl və cazibədar qızsan. İndi bircə məqsədi var. Tez bir zamanda yuxarıya çıxmaq və səninlə yatmaq... *(Ürpərdiyini göstərərək)* Heç vaxt sənə sahib olmayacaq. Heç vaxt... Çünki hər şey bizim istədiyimiz kimi irəliləyəcək. İndi pərdəni arala... Daha tez ol... *(Lilika pərdəni tutur)* Hər şey yolunda getməlidir.
**Lilika.** Oldu.
**Celika.** Uşağı barədə suallar var, yadından çıxmasın...
**Lilika.** Çıxmaz... Bəlkə, bu yola əl atmayaq?!..
**Celika.** Bu, ən böyük fürsətimizdir. Oldu? Yaxşısan?
**Lilika.** Deyəsən...
**Celika.** Hə, iş başına... *(Celika yataq otağına keçir. Qapıdı arxadan kilidlədiyi eşidilir. Lilika pərdəni açır. İşıq düyməsinə yaxınlaşanda, Celika qapını açaraq, gəlir. Həyəcanla)* Lənətə gələsən! Lənətə gələsən! Az qalmışdı yadımdan çıxsın. *(Celika masanın üstündəki silahı alıb, yenidən yataq otağına keçir... Lilika işığı yandırır... Çöldən ayaq səsləri eşidilir... Qapı zngi... Lilika həyəcanla qapını açır.)*
**Spanos** *(əlində bir maşın maqnitafonu).* Açığı, ümidimi kəsmişdim.
**Lilika.** Niyə?
**Spanos.** Dedim, bacısı gəlib yəqin ki... *(Gənc qızın əlindəkinə baxdığını göstərərək)* Ətrafda heç kim yoxdur. Bir de gördün, kimsə "Qalx, gedək" dedi.
**Lilika.** Başa düşmədim.
**Spanos.** Yəni... Oğurlamasınlar deyə... Oğurluqlar baş alıb gedir... Nəyimə lazımdır, mən ehtiyatımı görüm...

*(Lilika Spanosun əlindəki radio-maqintafonu alır, masaya qoyur. Sonra onun plaşını götürüb asır.)*

**Spanos.** Tərlik yoxdur?
**Lilika.** Ayaqqabılarınla gəl.
**Spanos.** İçəri palçıq olacaq.
**Lilika.** Eybi yox. *(Spanos ayaqqabılarını silir.)*
**Spanos.** Mümkün olsa, iş yerimdə də çıxardaram. Çünki özümü küçədə olan

kimi hiss edirəm.
**Lilika.** Belə rahatsansa, problem yoxdur.
**Spanos.** Ayağım keyiyib... Səni gözləməkdən... *(Gülərək oturur)* Eviniz gözəldir...
**Lilika.** Pis deyil.
**Spanos.** Amma çox uzaqdır.
**Lilika.** Avtobus dayanacağı yüz metr o tərəfdədir. Hər yarım saatdan bir avtobusumuz və...
**Spanos.** Yenə də uzaqdır.
**Lilika.** Amma aylıq kirayəsi ucuzdur.
**Spanos.** Mərkəzə yaxın bir yer tutsanız, daha yaxşı olmaz?
**Lilika.** Olar, amma şəhər mərkəzində ucuz ev yoxdur.
**Spanos.** Yol pulu aradakı fərqi ödəmir?
**Lilika.** Çox götür-qoy elədik. Beləsi daha ekanomiyalıdır. *(Spanos Lilikanın həyəcanlı olduğunu duyur.)*
**Spanos.** Səndə bir qəribəlik var.
**Lilika.** Məndə? Qəribəlik? Necə?
**Spanos.** Var, var... Narahatsan... İcazə ver orasını öyrənim...
**Lilika.** Belə bir şey ilk dəfəlik olur.
**Spanos.** Nədir ilk dəfə olan?
**Lilika.** Əvvəllər bu evə heç kimi gətirməmişəm. Bəlkə, ondandır?!
**Spanos.** Bəlkə də...
**Lilika.** Niyə "bəlkə" dedin? Yoxsa, inanmadın?
**Spanos.** İnandım. Yuxarı mərtəbədə kim olur?
**Lilika.** Hansı yuxarı mərtəbədə?
**Spanos.** Bu evin yuxarı mərtəbəsi yoxdur?
**Lilika.** Yaşlı ər-arvad.
**Spanos.** İşıqları yanmır.
**Lilika.** Yəqin evdə yoxdurlar. Yəqin uşaqlarıgilə gediblər. Hərdən gecələr orada qalırlar. *(Canqurtaran səsi)* Sobanı yandırım?
**Spanos.** Yox.
**Lilika.** Hava bir az sərinlədi.
**Spanos.** İstəyirsən, yandır. Deyəsən, üşüyürsən.
**Lilika.** Bir titrətmə gəldi.
**Spanos.** Yağış yağır... Ondan olacaq.
**Lilika.** İcazə versən, mətəbxə keçəcəyəm. Onsuz da hər şey hazırdır. *(Çıxır, Spanos gəzişir. Yataq otağının qapısını açmaq istəyir. Lilika əlində bir məcmeyi gəlir.)*
**Spanos** *(mənalı).* Yataq otağındır?
**Lilika.** Bacımın otağıdır. Mən burada yatıram.
**Spanos.** Bu gecə də?

**Lilika.** Hə.
**Spanos.** Tək?
**Lilika.** Utandırırsan.
**Spanos.** Niyə içəridə yox, burada?
**Lilika.** Bacım həssasdır... Otağına girəndə, əsəbiləşir. *(Otağın qapısını açmaq istəyirmiş kimi edir.)* Bax, yenə kilidləyib...
**Spanos** *(cibindən açarlıq çıxarır).* İstəyirsən, açaq.
**Lilika.** Yooox...
**Spanos.** Niyə?
**Lilika.** Açmağımız üçün bir səbəb yoxdur.
**Spanos.** Görmüş olarıq.
**Lilika.** Bacım sonra əsəbiləşər.
**Spanos.** Hardan biləcək?
**Lilika.** Bu, çox səmimi olmadı?
**Spanos.** Bacından qorxursan.
**Lilika.** Əslində... Qorxu deyil... Hörmət desək, məncə, daha düzgün olar.
**Spanos.** Deməli, hörmət?!
**Lilika.** Oxumağım üçün hər şey edir.
**Spanos.** Bəs gəlsə?
**Lilika.** Avtobusa özüm mindirmişəm... Ən tez üç gün sonra gələr... Su?
**Spanos.** Susuz içərəm... Hər şeyi fikirləşmisən.
**Lilika** *(onun öpüşlərindən məharətlə uzaqlaşırkən).* Fikirləşirəm... Amma tələsmək yoxdur...
**Spanos.** Tələsmirəm.
**Lilika.** Bütün gecə bizim deyilmi?
**Spanos.** Bizimdir.
**Lilika.** Eləysə... *(Qədəhləri toqquşdururlar.)*
**Spanos.** Əşyalarınız çox gözəldir. Xüsusilə, mebelləriniz...
**Lilika.** Bacımın böyük bir mebel mağazasında işlədiyini demişdim. Sənə bir sirr açım. Bunlar cüzi zərbə görmüş, qırılmış mebellərdir. Öz işçilərinə satırlar.
**Spanos.** Hanı zərbələri, heç bilinmir... Yaxşı...
**Lilika.** Satırlar dedim. Havayı vermirlər.
**Spanos.** Kreditlə?
**Lilika.** Kreditlə.
**Spanos.** Gözəl.
**Lilika.** Harası gözəldir? Az bir müddətdə müftə alırsan kimi bir hissə qapıla bilərsən. Ancaq uzun müddət, işlər bir az dəyişər. Demək olar ki, illik qazancının yarısını bacım bu mebellərə ödədi.
**Spanos.** Televizorunuz yoxdur.

**Lilika.** Almadıq.
**Spanos.** Məncə, sizə televizor lazımdır. Mən televizoru çox sevirəm. Serial, verlişlər, filmlər... Adam başını qatır.
**Lilika.** Başımızı qatdığı üçün almadıq. Dərs hazırlamalıyam.
**Spanos.** Yaxşı... *(Kitab rəfinə tərəf gedir)* Kitablar... Kitablar... Kitablar sənə mane olmur?
**Lilika.** İstirahət etdirir.
**Spanos** *(birini çəkib götürür).* "Ağ balina"... Bu, necə kitabdır?
**Lilika.** Gözəl kitabdır.
**Spanos.** Oxumusan?
**Lilika.** Niyə soruşursan?
**Spanos.** Çox qalındır... Hərfləri də çox kiçikdir... Necə də səbirlə oxuyursan, heyranedicidir... Gözlərin narahat olmur?
**Lilika.** Yooox... Zövqlə oxuyuram. Hələ üstəlik, üç dəfə...
**Spanos.** Üç dəfə?
**Lilika.** Sən də oxusan, xoşuna gələr...
**Spanos.** Mövzusu nədir?
**Lilika.** Bir kapitan var... Yeganə məqsədi, əvvəllər ayağını qopardan ağ balinanı tapmaq və...
**Spanos.** Və nə? *(Ard-arda üç dəfə fit səsi)*
**Lilika.** Öldürmək.
**Spanos.** Əvvəldən axıra kimi bundan danışır?
**Lilika.** Hə.
**Spanos** *(maraqlandığını göstərmək üçün).* Görünür, mənalıdır.
**Lilika.** Sən heç kitab oxumursan?
**Spanos.** Düzünü desəm, oxuyan deyiləm. Mənə kitablar, şey gəlir, necə deyərlər, qondarma... Çoxu uydurulmuş şeylərdir. Həm də, əslində, vaxtım da yoxdur. Oblomov... Qoncarov... Ay səni! Bunu yazan rusdur?
**Lilika.** Hardan bildin?
**Spanos.** Görmürsən, axırı "ov"la-"mov"la bitir. Qadağan filan olmasın?!..
**Lilika.** Bazarda satılır...
**Spanos.** Lenin də bu kitab haqqında nəsə demişdi. *(İçindən oxuyur)* Bəlkə də, qadağandır. Gəl ki, mən varam, amma başın ağrımasın... Sənə qadağan olunmuş kitabların siyahısını gətirərəm. Yadıma salarsan. Bu Lenin var ha, bu Lenin... Bütün torpaqları kəndlilərin əlindən aldı... Zavodları da sahiblərindən aldı... Kimə verdi? Dövlətə verdi. Yəni Dövləti rəis elədi. Hamı da kölə oldu. Eşşək kimi işləyirlər, yarı-yarımçıq doyurlar, ayaq üstə qalacaq qədər yatırlar... Necə də qorxunc vəziyyətdir, elə deyil? Bizim komilər də buna cəhd edirdilər. Allah saxlasın, inqilabı bizimkilər etdi.

**Lilika.** Komi dedin?
**Spanos.** Bilmirsən? Yəni kominist... Biz, qısaca komi deyirik. Siyasətlə heç maraqlanmırsan?
**Lilika.** Yox, onsuz da dərslərin ağırdır.
**Spanos.** Şükür ki, indiki gənclər sənin kimi yetişir. Dərslərindən başqa bir şeylə maraqlanmırlar...
**Lilika.** Bu yaxşıdır?
**Spanos.** Yaxşı da sözdür?! Sən çevrilişdən əvvəli görərdin. İşçilər, xüsusilə də şagirdlər ya komi, ya da komi dəstəkçiləri idi. Bilərək, ya bilməyərəkdən komilər üçün işləyirdilər... Ölkə uçurumun kənarına gəlmişdi. Xalqımız yatıb-durub, bizimkilərə dua etməlidir.

*(Bayırdan maşın səsi. Spanos pəncərənin yanına gəlib baxır.)*

**Lilika.** İndi hər şey yolundadır?
**Spanos.** Xeyr. Satqınlar hələ də əlaltdan işlərini görürlər. Fürsət tapan kimi yenə yıxıcı hərəkətə keçəcəklər. Ancaq bunu unutmurlar, o günlər çox arxada qalıb. Geriyə qayıtmaq mümkün deyil. Çünki yeddi ildə fikirlər dəyişib. Bu gəncliyin bir çatışmazlığı təhsillə bağlıdır. Təhsil, təhsil, təhsil! Gənc nəsil Meqalo-İdeanı tamamilə qavradığı gün, elə həmin an çox şey öz həllini tapacaq. Meqalo-İdea!
**Lilika.** Meqalo-İdea, hə?
**Spanos.** Hə, Meqalo-İdea! *(Buna uyğun dəstə səsi)* Gənclik yanan bir oddur. Bu odu düzgün istiqamətləndirsən, suyu qızdırar, isinərsən... Öz başına qoysan, şiddətli yanğında səni də yandırar... Bu gəncliyə bir hədəf göstərmək lazımdır. Budur, İstanbul, budur, İzmir! Dünənə kimi bizim olan yerlər, niyə yenə də bizim olmasın? Deyəsən, mənə qulaq asmırsan.
**Lilika.** Yox, sevə-sevə qulaq asıram... Mənə maraqlıdır, Kıbrıs məsələsi, deyəsən, yaman qızışıb.
**Spanos.** Yaxşı olacaq, yaxşı olacaq... Bizimkilər işlərini bilir. Zabitlərimizi, əsgərlərimizi Troya atına yığdılar. Yaxında bütünlüklə Kıbrıs bizim olacaq. Müstəqillik savaşında axıdılan onlarla qan, onlarla namizədi paylaşıb, birlikdə yaşayaq deyə, torpaqları suladı? İçmirsən?
**Lilika.** Yooox, içirəm. *(Əslində isə hamısını yanındakı qaba tökür.)*
**Spanos** *(kitab rəfindən bir kitab götürür. Olduğu kimi oxuyur).* Barbara Cartland... Bu kitab necə kitabdır?
**Lilika.** Sevgi romanıdır.
**Spanos.** Pornodur?
**Lilika.** Yox, canım. Adi sevgi romanıdır.
**Spanos.** Bax, bundan xoşum gəldi.

**Lilika.** Nədən?
**Spanos.** İnsanın yaşamağı üçün iki şey vacibdir: Pul və sevgi.
**Lilika.** Hansını seçərdin?
**Spanos.** Hər halda... Səni seçərdim.
**Lilika.** Bu, həqiqətdir?
**Spanos** *(yaxınlaşır).* Yalan niyə olsun? *(Göy guruldayır)*
**Lilika.** Yenə tələsirsən.
**Spanos.** Sənə heyranam... Yaşıdlarınla müqayisədə daha çox yetkinsən.
**Lilika.** Sən də yaşından gözlənilməyən tələskənlik içindəsən. Elə bil, tez-tələsik işini bitirib, qaçmaq istəyirsənmiş kimisən.
**Spanos.** Bu, hardan ağlına gəldi?
**Lilika.** Onsuz da kişilərin hamısı belədir. Bütün ehtirasları məqsədlərinə çatana qədər davam edir...
**Spanos.** Sən nələr bilirsənmiş?! Amma mən başqa kişilərə oxşamıram.
**Lilika.** Ümid edirəm, oxşamırsan... Heç ata minmisən?
**Spanos.** Bildiyimiz ata?
**Lilika.** Hə.
**Spanos.** Minmişəm.
**Lilika.** Heç birinci dəfə belinə miniləcək ata minmisən? Əsəbi, sarsaq, qorxaq olurlar. Onu ürkütməmək, əksinə, yumuşaltmaq, yola gətirmək lazımdır.
**Spanos.** Bir buna bax, gör, nələr bilir.
**Lilika.** Kobudluq eləsən, səni belindən tullayar.
**Spanos** *(əylənirmiş kimi).* Mən də zorla minirəm.
**Lilika.** Onda at sənə tövlənin qapısını göstərər.
**Spanos.** Bəs, çıxmasam?
**Lilika.** Necə də olsa, bir gün çıxacaqsan. Bir də girmək şansını itirərsən.
**Spanos.** Olduqca ağıllı cavabdır.
**Lilika.** Səndən bir şey də soruşmaq istəyirəm... Səhər maşına minəndə, neyləyirsən?
**Spanos.** Neyləyirəm?.. Şey... Əvvəlcə, matorun yağına, akkumulyatorun suyuna baxıram. Maşını sonra işə salıram... Aşağısı bir dəqiqə gözləyirəm ki, mühərrik qızsın... Sonra da...
**Lilika.** Sürəti tənzimləyib, qaza basırsan, hə? Olmaz ki, mühərrikin qızmağını gözləyək?
**Spanos.** Məni qışqırdırsan... Ax, səni balaca şeytan! *(Uzaqlaşanda)* Kaş ki... Kaş ki... Kaş ki...
**Lilika.** Niyə "kaş ki" dedin?
**Spanos.** Səninlə həmişə birlikdə ola bilsək...
**Lilika.** Olacağıq... Şübhəsiz ki, sən istədiyin müddətdə.

**Spanos.** Həmişə istəyərəm.
**Lilika.** Səncə, bu olacaq?
**Spanos.** Niyə?
**Lilika.** Evlisən.
**Spanos.** Evli olmağım mane olmur ki...
**Lilika.** Bax... Öz vəziyyətimizi ortaya qoyaq. Sonra mübahisə edək. *(Qədəhləri qaldırırlar)* Bir təsadüf nəticəsində tanış olduq. Bir restoranda yemək yeyirdin. Arxayın idin. Dünyanı vecinə almayan halın vardı.
**Spanos.** Məni əməlli-başlı müşahidə eləmisən.
**Lilika.** Səni görən kimi bəyəndim. Ürəyimdə dedim ki, elə axtardığım adamdır. Amma barmağındakı üzüyü görəndə...
**Spanos.** Sevmədiyim, öyrəşmədiyim bir üzük... Süvə bilməyəcəyim qadınla yaşadığım bir nigah... Bir həyat...
**Lilika.** Səninlə evlənsəydim, polis kimi addım-addım izləyərdim. Bir saniyə belə, səni özümdən uzaq buraxmazdım.
**Spanos.** Onda işləyə bilməzdim.
**Lilika.** İşləyərdin... Yenə də hər saat zəng eləyərdim sənə. Bəlkə də, darıxardın, amma xoşbəxt eləmək üçün əlimdən gələni eləyərdim. Tapardım. *(Maqnitafonu qoşur)*
**Spanos***(həvəslə musiqiyə aludə olaraq).* Heeey!.. Mən nəyəmmiş xəbərim yoxdur.
**Lilika.** Başa düşmədiyim bir şey var. Sevmədin bir qadınla necə evlənmisən?
**Spanos.** Vecinə almaaa.
**Lilika.** Bir-birimizdən heç nəyi gizlətməyək.
**Spanos.** Məni belə qəbul elədiyinə görə... *(Sükut)*Bir iş yoldaşım vardı... Eyni polis idarəsində işləyirdik. "Ütülənəsin, paltarın, yeməyin... Səni evləndirək" dedi. Yaşı məndən çoxdur... On yaş... Ancaq varlıymış... Üç dənə mənzili var. Gözəllik onsuz da vacib deyilmiş. Əsas qadında daxili gözəllik və namus imiş. Sonra ali təhsil almağıma da kömək olarmış... Sonra...
**Lilika** *(musiqinin səsini azaldır).*Sonra...
**Spanos.** Bir də gördün ki, kilsədə mərasimdəyəm. Deyirlər ki, gəlinlik hər qadına yaraşır. Bu qənaətə gələnlər əgər bizim nikahımıza gəlsəydilər, fikirlərindən daşınardılar. Küçəyə çıxanda, məcburən qoluma girəndə, ölürdüm. Hərdən əlimi tuturdu... Utanırdım... Yerin dibinə girirdim... Bir gün təzə tanış olduğumuz bir nəfər arvadımı göstərib, "ananız çox cavandır" dedi. Arvadım olduğunu demədim. Deyə bilməzdim. Düzünü desəm, ismətli, namuslu qadındır. Daha doğrusu, namuslu qalmağa məhkumdur. Çünki heç bir kişinin ona baxmaması kimi bir şanssızlıqla üzləşib.
**Lilika.** Məni gözəl olduğum üçün seçdin?
**Spanos.** Yooox... Yooox... Bax, səninlə qarşılıqlı danışa bilirik...

**Lilika.** Sonra?

**Spanos.** Sonra... Sonra oğlum dünyaya gəldi... Oğlum... *(Sükut)* Amma arvadıma heç cürə isinişə bilmirdim. Artıq məsləyimin nemətlərindən faydalanmağa başlamışdım. Meyxanələrə, barlara, gecə klublarına rahatlıqla girib-çıxa bilirdim. Gözəlçələrlə dostluqlar, münasibətlər qururdum. Amma oğlumu da çox istəyirdim. Sonra əl çəkdim. Daha çox öyrənmək imkanımı dəyərləndirdim. Bir sözlə, həyatı məni oğlumla və bu günkü vəziyyətimlə təmin elədi.

**Lilika.** Amma evlilik üçün vacib olanları elə də yerinə yetirmirsən. Elə olur ki, gecələr iş başında olursan.

**Spanos** *(gülür).* Elə olacaq da... Bu gün də səninlə birlikdə olmaq üçün evdə dedim ki, iş başındayam.

**Lilika.** İnan ki, bu danışdıqlarından sonra, səni daha çox sevdim. Səmimisən. Bax, mən hələ tələbəyəm... Bacımın dəstəyi ilə oxumağa çalışıram. Nə istədiyimi bilirəm. Ağıllıyam. Həqiqətən, səndən çox xoşum gəldi, getdikcə sevdim. Heç bir qarşılıq gözləmədən. Daim səninlə bir yerdə olmaq istəyirəm... Amma bircə istəyim var...

**Spanos.** De.

**Lilika.** Mənə qarşı həmişə dürüst ol.

**Spanos.** Dürüst deyiləm?

**Lilika.** Mənlə olmaq, ya olmamaq istəyəndə, özünü məcbur eləmə. Məndən heç nəyini gizlətmə.

**Spanos.** Nə gizlətmişəm ki?

**Lilika.** Gizlətmisən demirəm.

**Spanos.** Bəs eləysə?..

**Lilika.** Həyatını alt-üst eləməmək şərti ilə səninlə birlikdə olmaq istəyirəm. Başa sala bilirəm?

**Spanos.** Hə.

**Lilika.** Heç kim dostluğumuzdan xəbər tutmasın. Kimə isə qarşı qürurlanmaq ehtiyacını hiss etməyək.

**Spanos.** Onsuz da kimə deyəcəyik ki?

**Lilika.** Amma səndən bir istəyim də var: o da mənə ləkəli damğa vurmamağındır.

**Spanos.** Başa düşə bilmədim.

**Lilika.** Mənim haqqımda fikirləşmə ki, bir həftə əvvəl gördüyü, bir təsadüf nəticəsində tanış olduğu bir kişini üçüncü görüşdə evə çağırır, əşi, axmağın biridir.

**Spanos.** Niyə görə elə fikirləşim? Mən səni məcbur elədim ki, evinə gəlim.

**Lilika.** Amma o imkanı sənə mən verdim.

**Spanos.** Başa düşmədim.

**Lilika.** Bacımın bir müddətlik gedəcəyini, tək olduğumu demədim? Utanıram!
**Spanos.** Otelə gedə bilməzdik axı. Bir tanıyan olardı. Buna səni mən məcbur elədim. Bax! Müqəssir olmaq üçün bir səbəb yoxdur. Heç nədə özünü günahkar hesab etmə.
**Lilika.** Heç nədə?
**Spanos.** Heç nədə. Çünki mən də hesab eləmirəm.
**Lilika.** Doğrudan?
**Spanos.** Əlbəttə! Biz bu dünyaya günahkar olmaq üçün gəldik? Bir də ki, günahkarlıq hiss etmək lazımdırsa, bu, bütün insanlar üçün söhbət mövzusu olmalıdır. Kiçik də olsa, hansımız peşmanlıq keçirmədik? Özümüzü günahlandırmadıq? Harda oxumuşdum?! *(Fikirləşir, xatırlaya bilmir)* Belə deyirdi: "Hər səhv edən həyatının qalan hissəsini günahkarlıq hissləri içində keçirtsəydi, indi bütün insanlıq iztirab çəkməliydi". Hamı özünü ən pis, lazımsız davranışlarında belə, haqlı göstərmək istəmir? Məfhunlar, anlayışlar, hər şey vaxt keçdikcə, dəyişmir? Elə bir qarışıq dünyada yaşayırıq ki, dünən səhv dediyimiz bir çox şey bu gün düzgün olur... Ya da dünən düz olan, bu gün səhv. Onda, nəyin günahkarlığını hiss edəcəyik?
**Lilika.** Deyəsən, bayaq yalan dedin.
**Spanos.** Nə yalan?
**Lilika.** Dedin ki, oxumursan... Mənə elə gəlir ki, çox oxuyursan.
**Spanos.** Mən? *(Əlinə bir qəzet götürür)* Gündəlik qəzetləri belə, vəzifəm xatirinə oxuyuram. *(Səhifələri açanda, sanki, cırır)* Nə oxuyum? Nədən oxuyum? Yazılanlar, deyilənlər o qədər məqsədyönlüdür ki... Çox oxuduğum qənaətinə necə gəldiyini başa düşmədim.
**Lilika.** Nə bilim?! Maraqlı danışırsan da.
**Spanos.** Məncə, 45 yaşım olduğunu demişdim.
**Lilika.** Sənin belə bir kişi olduğunu başa düşmüşdüm. Görən kimi başa düşmüşdüm.
**Spanos.** Fərqində belə deyildim.
**Lilika** *(incimiş kimi).* Cazibədar olmadığımı demək istəyirsən?
**Spanos** *(səmimi).* Onu demək istəmirdim. Tamamilə əksinə. Çox, çox gözəlsən! *(Həyəcanlanır)* Deyə bilərəm ki, gördüyüm ən gözəl!
**Lilika** *(qucaqlamaq istədiyini görüb uzaqlaşır).* İçkini içmirsən.
**Spanos.** Çox cazibədarsan. *(İçir)* Çox gözəlsən.
**Lilika** *(yenə də onun qədəhinə içki süzür).* Sərxoş ol və məni sərxoş görmə...
**Spanos.** Onda nəyə lazımdır?
**Lilika** *(utanırmış kimi edir).* Amma çox utancağam.
**Spanos.** Bir əksiyim yoxdur ki...
**Lilika.** Gözəl oyundur, elə deyil?

**Spanos.** Nə oyunu?
**Lilika.** Məni bəyənmirsən?
**Spanos.** Oyun dedin. O, nə deməkdir?
**Lilika.** Həmişə məndən xoşlandığını, çox xoşlandığını de.
**Spanos.** Deyirəm. Oyun dedin.
**Lilika.** Bir yerdə olmağımız gözəl bir oyun kimidir... Yuxu kimi... Səninlə birlikdə olmaq çox gözəl bir şeydir... *(əlindən tutub, ayağa qaldırır)* Mənimlə rəqs etməyəcəksən?

*(Rəqs edirlər. Spanos rəqs edə bilmir, bacarmır. Daha çox qıza uyğunlaşmağa can atır.)*

**Spanos.** Çox gözəlsən.
**Lilika.** Doğrudan?
**Spanos.** Həddindən çox.
**Lilika.** Ən çox haralarımı bəyənirsən?
**Spanos.** Burnunu... Dodaqlarını... Gözlərini... Ayaqlarını...
**Lilika.** Kim bilir, bu sözləri neçə qadına demisən...
**Spanos** *(səmimiyyətlə).* Bu günəcən sənin kimisilə olmamışam.
**Lilika.** Sualıma cavab vermədin.
**Spanos.** Heç nəyi vecinə alma.
**Lilika** *(qısqanırmış kimi).* Birlikdə olduğun qadınları necə vecinə almaya bilərsən?
**Spanos.** İkinci sinif rəqqasələr, beşinci sinif müğənnilər... Hamısını bir kənara qoy. Onlar həyatımın səhvləri idi. Eynilə arvadım kimi.
**Lilika.** Daha arvadından danışma. Əsəbləşirəm. Səni incitdiyi üçün. Mənim bəxtsiz centelmenim. Sənin yanında özümü etibarlı hiss edirəm. Çox güclü kişisən.
**Spanos.** Kişi de mənə.
**Lilika.** Kişi!
**Spanos.** Adımı de. Adımı.
**Lilika.** Spanos!
**Spanos.** Yenə, yenə.
**Lilika.** Spanos! Spanos! Spanos!.. Sümüklərim sınacaq. Burax!
**Spanos.** Məni həyəcanlandırırsan. Artıq! Şey...
**Lilika** *(məharətlə sıyrılaraq).* Pencəyini çıxartmayacaqsan?
**Spanos.** Pencəyimi?
**Lilika.** Hər yerin yanır... *(Onun pencəyini çıxardanda, təsadüfənmiş kimi qoltuq altındakı silahına toxunur)* Bəs bunu?
**Spanos.** Narahat elədi?
**Lilika.** Aramızda soyuq dəmir. Nəyə lazımdır? *(Spanos silahını çıxardır)* Doludur?
**Spanos.** Boş olsa, niyə gəzdirim ki?

**Lilika.** Silahdan çox qorxuram.
**Spanos** *(silahı qıza dikəldir).* Çox qorxursan?
**Lilika.** O tərəfə elə bunu!.. *(Göy guruldayır)*
**Spanos.** Bu gecə, bura səni öldürmək üçün gəlmişəm.
**Lilika.** Xahiş edirəm!.. Nə olar!..
**Spanos.** Amma silahla yox... Çarpayıda... Sən həqiqətən qorxdun?! Heey!.. Özünü ələ al, nə olub?
**Lilika.** Heç...
**Spanos.** Sərrast nişançı olduğumu bilirsən? Özümü tərifləmək kimi çıxmasın, amma uyğun məsafədən atdığımı vuraram.
**Lilika.** Bilmirəm.
**Spanos.** Bir qoşun təşəkkür... Medallar... Medallar... Medallar...
**Lilika.** Əslində, təbiidir... Nə də olsa, əlinə götürəli 25 il olub.
**Spanos.** Bu qədəhi qabağa qoy.
**Lilika.** Neyləmək istəyirsən?
**Spanos.** Bax!.. Ətraf kimsəsizdir... Gələndə, bir dənə də olsun işıq görmədim. Bir vuruşda qədəhi parça-parça edim.
**Lilika.** Dəli olmusan?
**Spanos.** Hə... Bircə əl... Səsi eşidilməz.
**Lilika.** Deyəsən, dəli olmusan?!
**Spanos.** Məni qırma.
**Lilika.** Rüsvay olarıq. Daha içmə. Deyəsən, sərxoş olmusan.
**Spanos.** Sərxoş deyiləm.
**Lilika.** Sərxoşsan sən.
**Spanos.** Mən elə asanlıqla sərxoş olmuram.
**Lilika** *(qədəhi uzadır).* Eləysə iç...

*(Spanos silahı uzadılan qədəhə yönəldir. Lilika onun qolunu aşağı salır.)*

**Spanos.** Ver, mənim balaca mələyim, ver... Sənin əlindən hər şey içərəm.
**Lilika** *(guya içərək).* Heç adam öldürmüsən, yəni işin, vəzifən tələbində?
**Spanos.** Bəlkə də...
**Lilika.** Deyəsən, tam əmin deyilsən. Niyə "bəlkə" deyirsən?
**Spanos.** Bir həkimi fikirləş... Bir əməliyyat edir... Həkimin məqsədi nədir? Əməliyyatdan sonra xəstənin sağlam şəkildə ayağa qalxması, həyatını davam etməsi, elə deyil? Amma bütün səylərinə rəğmən, xəstə xilas olmur. Səncə, bu, öldürməkdir?
**Lilika.** Bəs, həkim xəstəni bilərəkdən öldürsə?
**Spanos.** Heç bir həkim xəstəni öldürməz.

**Lilika.** Deyirsən, öldürməz?
**Spanos.** Öldürməz. Güllə yarası almış, ya da yol qəzasında yaralanmış bir xəstəni heç bir həkimin bilə-bilə öldürdüyü görülməyib. Dayan. Amma xəstə olaraq, gələn adam həkimi öldürməyə cəhd etsə, təbii ki, onda iş dəyişir.
**Lilika.** Yəni deyirsən ki, xəstənin onu öldürəcəyini fikirləşib, həkim daha tez tərpənib, xəstəni öldürsə, bu, təbiidir.
**Spanos.** Xeyr! Demək istəyirəm ki, əgər narahatçılıq yox, dəqiq simptomlar məsələdirsə.
**Lilika.** Bəs, eyni narahatçılığı xəstə keçirirsə?
**Spanos.** Başa düşmədim.
**Lilika.** Yəni həkimin onu öldürəcəyini bilib, özünü müdafiə edirsə?
**Spanos.** Yenə də şansı azdır. Çünki bir həkim yaşatmağı da, öldürməyi də bir vətəndaşdan daha yaxşı bilir.
**Lilika.** Yəni deyirsən ki, bu vəziyyətdə öldürənin təqsirkarlıq hiss etməyi üçün bir səbəb olmayacaq. Yəni bu, bir öldürmə hadisəsi olmayacaq. Eləmi?
**Spanos.** Bunlar haradan ağlına gəlir?
**Lilika.** Söhbət edirik də.
**Spanos.** Beynimi qarışdırdın. Bu mövzulardan bezdim. Bir kişi ilə bir qadının danışacaq, ya da eyləyəcək o qədər şeyləri var ki... Ölmə!.. Öldürmə!.. Siyasət! Bütün bunlar bizdən uzaq olmalıdır. *(Fikirləşir)* Amma mənim canlı bir varlığı, bir insanı öldürüb, öldürmədiyimi öyrənmək istəyirsənsə, o başqa. Mən də bir dəfə təhlükəsizlik qoruyucusu olaraq, bi günahkarı xilas edə bilməmişdim. Onsuz da kütləylə ayaqlaşmaq, üsyançıların yaşayıb-yaşaya bilməməklərinin mənimlə əlaqəsi yoxdur... Çünki yollarını özləri seçdi, nəticəsinə də qatlaşmağa məcburdurlar. Nə isə, indi bu barədə mübahisə etməyək. *(Gənc qızı tutub, qaldırır. Rəqs etməyə başlayırlar.)*
**Lilika.** Yenə də tələsirsən.
**Spanos.** Yooox...
**Lilika.** Bütün gecə bizim deyil?
**Spanos.** Bizimdir.
**Lilika.** Yellədirsən... Məni də yıxacaqsan.
**Spanos.** Yıxmaram.
**Lilika.** Ah! Ayağımı tapdaladın.
**Spanos.** Ağrıdı?
**Lilika.** Bir az.
**Spanos** *(Lilikanı yavaşca kresloda oturdur).* Mən rəqs etməyi elə də bacarmıram. Həyatım boyu bir neçə dəfə rəqs etmişəm. Birinci dəfə toy günü. Evləndiyim gecə. Gəlinlə bəyin ilk rəqs etməyi adət imiş. Biz də adət-ənənəni yerinə yetirdik. Bax, buna yaxşı qulaq as. Əgər qadın kişinin ayağını bassa, bütün həyatı boyun-

ca ona hökm edərmiş... miş, miş, miş... Başa düşürsən də, ayağımı tapdaladı. Əslində, tapdalamadı, əzdi, topuqlarıyla ayağımı əzdi. Niyə? Mənə bütün həyatı boyunca hökm eləmək üçün. Amma yanıldı. Bax, indi yenə vəzifə başındayam. Bundan sonra hər gecə vəzifə başına, işə çıxacağam. Sənin yanına gələcəyəm!
**Lilika.** Birdən arvadın sənin işdə olmadığını başa düşsə...
**Spanos.** Başa düşməz.
**Lilika.** İş yerinə zəng eləsə...
**Spanos.** Gecənin bu vaxtında?
**Lilika.** Niyə də yox? Nə bilim, məsələn, xəstələnsə?..
**Spanos.** O, heç vaxt xəstələnmir. O, nə xəstələnir, nə də ölür... Ona heç nə olmaz!
**Lilika.** Bəs oğlun?
**Spanos.** Nə olub ki, oğluma?
**Lilika.** Hər gecə evə gəlir?
**Spanos.** Gəlir. Hər gecə evdə olur... Olmaq məcburiyyətindədir. Niyə soruşursan ki?
**Lilika.** Oğlun sənə oxşayır?
**Spanos** *(pul qabından şəklini çıxardır. Uzadır).* Al! Özün qərar ver...
**Lilika** *(götürüb baxır).* Çox yaraşıqlıdır.
**Spanos.** Mənə oxşayır?
**Lilika.** Eynilə... Qız dostları çox olar.
**Spanos.** Oğlum... Oğlumdan bir dənədir.
**Lilika.** Şorgözdür?
**Spanos.** Bilmirəm. Biz ata-oğul bu mövzuda üz-göz olmuruq. Bəlkə də, eləyir. Bəlkə də, yoxdur. Bəlkə də, bir qadınla münasibəti var... Bütün bunları niyə soruşursan?
**Lilika** *(şəkli verərkən).* Belə başa düşürəm ki, oğlun alicənab bir uşaqdır. Belə bir uşağın atası olmaq necə də xoşdur.
**Spanos.** Elədir!.. Dostlarını çox yaxşı seçir. Dərslərini də çox yaxşı oxuyur. *(Öpməyə çalışır)*
**Lilika.** Tutaq ki, bu gecə evə getmədi. Arvadın neyləyər?
**Spanos.** Sən tamamilə fərqlisən... Sənin kimisini...
**Lilika.** Amma cavablandırmadın.
**Spanos.** Nəyi?
**Lilika.** Mənə qulaq asmırsan.
**Spanos.** Qulaq asıram.
**Lilika.** Elə isə sualıma cavab ver.
**Spanos.** Nə soruşmuşdun?
**Lilika.** Oğlun bu gecə evə getməsə, arvadının neyləyəcəyini soruşdum.
**Spanos.** Həmişə eyni sual.

**Lilika.** Elə hesab edək ki, getməyib... Arvadın o saat səni iş yerindən axtarar, elə deyil? Səni də tapa bilməyəcək... Onda nə olar? İş başında olmadığını öyrənəcək və səndən şübhələnəcək. Elə deyil?
**Spanos.** Oğlum, arvadım indi hardan ağlına gəldi? Burada baş-başa... Sənin xəyal gücün həddən artıqdır... Sənə bir şey deyim? Səndən yaxşı polis olar...
**Lilika.** Niyə?
**Spanos.** Təsəvvür edilməz şeyləri fikirləşə bilirsən, ona görə.
**Lilika** *(musiqinin səsini qaldırır).* Yaxşı, bunları bir kənara qoyaq. *(Onun köynəyinin düymələrini açarkən)* Bədənin heç korlanmayıb... *(çəkilir, kənardan izləyir)* Eynilə heykəl kimisən... İcazı ver, sənə uzaqdan baxım.

*(Spanos bədənini daha baxımlı göstərmək üçün qarnını içəriyə çəkib.)*

**Lilika.** Uzan ora... Arxanı çevir...
**Spanos.** Niyə?
**Lilika** *(utanırmış kimi edir).* Rahat soyunmaq istəyirəm.
**Spanos.** Utanmağına bir səbəb yoxdur. Mən də səni görmək istəyirəm.
**Lilika.** Necəsə... Bir az sonra... Nə olar, mənə baxma... *(Spanos arxasını çevirir. Gənc qız onun olduqca sərxoş olduğunu anlayıb, silahı alır. İstifadə edə bilmədiyi tutmağından bəllidir.)* Baxma mənə... Baxma!.. *(Yavaşca yataq otağının qapısına doğru yaxınlaşırkən)* Baxma...

*(Yataq otağının qapısı açılır və əlində silah Celika içəri girir. Celika musiqinin səsini kəsir. Spanos başını yavaşca çevirir.)*

**Celika.** Ayağa dur!
**Spanos.** Bu nədir?
**Celika.** Ayağa dur, dedim.
**Spanos.** Bacındır?
**Lilika.** Hə.
**Spanos.** Bu nədir?
**Celika.** Bu əlimdəkinin nə olduğunu bilirsən də?! Səsboğucusu da var. Bilirsən ki, səsboğucu taxılmış silahlar da işini görür... Həm də hay-küysüz. Başa düşürsən də?!
**Spanos.** Neyləmək istəyir?
**Celika.** Bir azdan görəcəksən. Sənin kimi sərrast nişancı deyiləm, amma yenə də bu uzaqlıqdan beynini dağıdaram. Bunu yadından çıxartma, dediklərimi elə!
**Spanos.** Mənim heç bir pis məqsədim yox idi ki...
**Celika.** Pis məqsədin yox idi?

**Spanos.** Yox idi... Bir az burada...
**Celika.** Bir azdan biləcəyik... Artıq-əskik nə isə etməyə cəhd eləsən, and içirəm ki, beynini dağıdaram.
**Spanos** *(səsini tanımağa çalışır).* Səsin... Sə...
**Celika.** Arxanı çevir!.. Çevril dedim!.. Ayağa dur!.. Dur ayağa, dedim!.. Yeri!.. Yeri dedim sənə!.. Jurnal masasına doğru get... Qətiyyən səhvə yol vermə... Bircə addım atsan, vuraram... Qaldır onu... Qaldır dedim... *(Spanos jurnal masasını qaldırır. Zəncirləri görür. Əlindəki jurnal masasını buraxır.)* Zəncirləri ayağına keçir... Tax o zəncirləri... Hə!.. Tez ol... Səhvə yol vermə!.. Beynini dağıdaram... Bir az tez ol... Qurdalanma... Tax dedim... Yaxşı bağla... Hə!..

*(Spanos bir an duruxur. Zərbəni planlaşdırdığı bəllidir. Celika atəş açır.)*

**Spanos.** Bu nədir?
**Celika.** Vurmaq üçün atəş açmadım. Amma bir az da qurdalansan, səni öldürə-rəm... And içirəm ki, öldürərəm. Ayaqlarını bağla... Bağla!.. *(Spanos hər iki ayağını zəncirə keçirir.)* Kilidini bağla... Bas, bağlanacaq... Bas!.. Bas!..

*(Lilika Spanosun arxasından yanına yaxınlaşır. Əlini qandala uzadanda, Spanos birdən qızın saçlarından tutur. Bu zaman əlini mərhələ ilə qızın boynundan vurur və özünə sarı çəkərək, qoluyla sarıyır.)*

**Spanos.** Nədir?.. Nə olub? Neyləyirsən? Bütün bunlar nə deməkdir? Manyaksan, nəsən? *(Celika neyləyəcəyini bilmir. Əlində silahla eləcə gözləyir)* İndi sən mənə yaxşıca qulaq as... Qətiyyən atəş açmağı ağlına da gətirmə... Səhv nə isə eləməyə cəhd eləsən, bacının o gözəl boynunu qıraram. Başa düşürsən? O tapançanı ora qoy... Qoy... Danışaq... *(Qoymadığını gördükdə, qızın boynunu sıxır)* Elə bilirsən, zarafat edirəm, axmaq! Bacını öldürdəcəksən?.. Qoy..
**Celika.** Qoydum... Bəsdir!..
**Spanos.** Dərdin nədir, de? Məni niyə bu vəziyyətə saldın?
**Celika.** Lilika mənim bacımdır.
**Spanos.** Bilirəm. Məni bura çağırdığı üçün gəlmişəm. Sənin evdə olduğunu da bilmirdim. Bir də ki, pis bir məqsədim də yox idi... Sadəcə, içmişik... Bacından xoşum gəlir... Hətta sevirəm... Bəli, sevirəm... Bəlkə, Lilikadan yaşca böyüyəm... Niyə də sevməyim? Sevirəm... Aç bu kilidləri, aç! Aç!.. Aç!.. Bacını istəməyim günahdır?
**Celika** *(yavaş-yavaş çaşqınlığından uzaqlaşır).* Amma sən evlisən...
**Spanos.** Olsun... Bir gənc qızla münasibət quran ilk evli kişi mən deyiləm ki... Bu kilidləri aç...

**Celika.** Bacımı qorumağım təbii deyil?
**Spanos.** Təbiidir... Bu kilidləri aç... Daha rahat danışaq... Bax, onsuz da arvadımı boşayacağam. Boşayana qədər görüşmərik... Başa düşürsən? İndisə bu saat gedərəm... Bu kilidləri aç... Geyinib gedərəm... Niyə danışmırsan? Aç dedim... Aaaaç... Məni əsəbləşdirirsən... Yoxsa, boynunu sıxaram, aç...
**Celika.** Məndən bunu istəmə... Belə danışaq...
**Spanos.** Nə olursa, olsun, deyirəm, sıxaram boynunu... Bir saniyəlik işdir. Görürsən ki, güclüyəm.
**Celika.** Əgər ona bir zərər versən, yəqin ki, bu evdən sağ çıxmayacağını bilirsən də?! *(Bacısının inlədiyini eşidir)* Çörək bıçağı ilə səni doğrayaram... Sıxma!.. Sıxma!..
**Spanos** *(rahatladır).* Bir şey olmağını istəmirsənsə, məni sərbəst burax... Gərək buraxasan... Başa düşürsən?
**Celika.** Başa düşürəm.
**Spanos.** Bircə, məqsədinin nə olduğunu bilsəm... Bu zəncirlər? Elə bil ki, hər şey əvvəlcədən planlaşdırılıb... Burax məni... Dost kimi ayrılaq.
**Celika.** Buraxacağam... Amma bacımı bir də görməyəcəksən.
**Spanos.** Oldu... Oldu, görməyəcəyəm...
**Celika.** Arvadından ayrılana qədər görməyəcəksən.
**Spanos.** Görməyəcəyəm.
**Celika.** Bu dəqiqə buradan gedəcəksən.
**Spanos.** Gedəcəyəm.
**Celika.** Mənə söz ver.
**Spanos.** Söz.
**Celika.** Kişi sözü ver.
**Spanos.** And içirəm... Gedəcəyəm... Bu dəqiqə gedəcəyəm... *(Celika silahı kiçik stolun üstünə qoyur. Cibindən açarları çıxardır. Spanos inanıb.)*
**Celika** *(uzadanda).* Bəs, üstümə cumsan?
**Spanos.** Nə vaxt?
**Celika.** Səni buraxanda...
**Spanos.** And içirəm ki, heç bir şey eləmərəm... O dəqiqə çıxıb gedərəm... İnan mənə...
**Celika.** Sənə güvənməyim üçün bir səbəb yoxdur.
**Spanos.** İkimizin də seçimi yoxdur. Bacının ölməyini istəyirsən?
**Celika.** Yox!
**Spanos.** Onda, məni sərbəst buraxmaq məcburiyyətindəsən... Məsələ də beləcə bağlanar... Başqa həll yolu varsa, de...
**Celika.** Bilmirəm...
**Spanos.** Əslində, bacını qorumağın qınanılası bir vəziyyət deyil. Bax, sən yaxşı

qıza oxşayırsan. Amma mən də pis insan deyiləm. Mebelləriniz çox gözəldir. Səninçün dedim ki, nə zövqlü bir qızdır. Səninlə tanış olmaq istədim. Bacın dedi ki, indi vaxtı deyil. Restoranda danışmadıq? *(Lilika gözlərilə "hə" deyir)*
**Celika.** Həm onu sevdiyini, həm də öldürə biləcəyini deyirsən. Bu, bir ziddiyət deyilmi? Bu, necə sevgidir?
**Spanos.** Ziddiyət niyə? Ortada qəribə bir hal var. Əvvəlcə gərək xilas olum.
**Celika** *(yenidən inanmış görünür).* Haqlısan. Sənə inanmaq məcburiyyətindəyəm. Onsuz da evlisən. Sən gedib orada-burada bu hadisədən söz açsan, mən də sənin arvadını tapıb, bacımla olan münasibətini bütün çılpaqlığı ilə danışaram. *(Celika yaxınlaşır. Lilikaya açarları uzadırmış kimi edir. Spanos hələ də qızı tutub. Lakin müəyyən bir rahatlıq içindədir. Celika birdən Spanosun əlindən bacısını dartıb götürür. Spanos məəttəldir.)* Alçaq hərif! *(Spanosun üzünə tüpürür)* Bu andan etibarən nəzarətdəsən, köpək! Məni tanımadın, elə deyil?
**Spanos.** Tanıya bilmədim.
**Celika.** Yaxşı ki, tanımamısan... Amma bundan belə, tanımamağın üçün bir səbəb qalmadı... *(Celika başındakı pariki çıxardır)* Hələ də tanımadın məni? *(Eynəyi çıxardır)* Yaxşı bax... Bəs indi?
**Spanos** *(çaşqın).* Celika!

***Pərdə***

## İKİNCİ HİSSƏ

***(Spanos eyni şəkildə zəncirlidir. Əlləri də hər iki tərəfində qandal olan bir zəncirlə bağlıdır. Üzündə xora (yara) izləri görünür. Celika orada deyil. Keçən bir vertalyotun səsi... Spanos ayılır...)***

**Spanos.** Hardadır?
**Lilika.** Otaqda.
**Spanos.** Neyləyir?
**Lilika.** Bilmirəm.
**Spanos.** Onunla əlbirsən, bilməyin lazımdır. Mənə neyləyəcək?
**Lilika.** Dedim ki, bilmirəm.
**Spanos.** Səndən də istifadə elədi!
**Lilika.** Dediyini etmək məcburiyyətindəydim.
**Spanos.** Məni aldadaraq?
**Lilika.** Lazım olanı elədim.
**Spanos.** Danışanda, üzümə baxa bilmirsən.

**Lilika.** Yooox!..
**Spanos.** Etdiyinin cinayət olduğunu yəqin ki, bilirsən...
**Lilika.** Bilirəm.
**Spanos.** Eləysə niyə istifadə olundun?
**Lilika.** Günahkarsan.
**Spanos.** Mənim heç bir günahım yoxdur.
**Lilika.** Görəcəyik.
**Spanos.** İnan ki, günahım yoxdur.
**Lilika.** Bunu mənə yox, bacıma de.

*(Sükut)*

**Spanos.** Doğrudan bacındır?
**Lilika.** İnanmırsan?
**Spanos.** Əvvəldən mənə yalan danışdın.
**Lilika.** O, mənim bacımdır.
**Spanos.** Hələ nə qədər gözləyəcəyik?
**Lilika.** İstəyirsən, xəbər verim.
**Spanos.** Yox! Hələ yox! Bəs, tələbə olduğun?
**Lilika.** Tələbəyəm.
**Spanos.** Bəlkə, o da yalandır... *(Lilika susur. Bir an sükut)* Bax, sən yaxşı qıza oxşayırsan... Başın bəlaya düşəcək... Gəl, ən yaxşısı, məni burax.
**Lilika.** Necə?
**Spanos.** Bu kilidi aç, gedim... Hə!..
**Lilika.** Açar ondadır.
**Spanos.** Bacarıqlı qızsan... Yaxşı... Açarı sezdirmədən götürə bilərsən.
**Lilika.** Niyə?
**Spanos.** Çıxıb getməyim üçün...
**Lilika.** Getməyini təmin edəcəmsə, səni niyə gətirdim?
**Spanos.** Bax, pis işə yoluxursan. Üstəlik, vaxt da hələ keçməyib. Hər an vəziyyəti dəyişdirə bilərsən... Qorxmursan?
**Lilika.** Artıq qorxmuram. İşin çətin tərəfi geridə qaldı. Sənin bu evdə olduğunu bilən yoxdur.
**Spanos.** Amma maşınım çöldədir... Xüsusi də olsa, bir neçə nəfər mənim maşınımı tanıyır. Butadan bir yol polisi keçsə... O dəqiqə tanıyarlar...
**Lilika.** Tanıyanda, nə olur?
**Spanos.** Mənim maşınımın belə küncdə-bucaqda nə işi var? Gözləyərlər. Gəlmədiyimi görəndə də... Bəlkə də, bircə-bircə evləri axtararlar... Fikirləş ki, məni tapa bilmirlər... Gələcəyin tamamilə məhv olar. Hə, kömək elə, buradan

gedim.
**Lilika.** Təhlükəyə dəyər. Çünki haq-hesab çəkməyinizi mən də istəyirəm. Artıq istəyirəm.
**Spanos.** Ooof!.. Özün də bilmədən, günahsız bir insana pislik edirsən.
**Lilika.** Əgər günahsızsansa, bəs, niyə belə şübhə içindəsən?
**Spanos.** Bacın normal adam deyil ki... Məni... Cəzalandırmaq onun üçün dəyişməz fikirdir. Buradan xilas olmağım mümkünsüzdür.
**Lilika.** Neyçün? Günahsızsansa, xilas olacaqsan.
**Spanos.** Günahsızam. *(Qapının açılıb, Celikanın girdiyini hiss etmir)* And içirəm ki, günahsızam.
**Celika.** Deyəsən, oyanmısan... Ayıq olmağını istəyirəm... Çünki verəcəyin cavablar vacibdir. Öz gələcəyini özün quracaqsan.
**Spanos.** Bax, Celika... Burax məni... And içirəm ki, çıxıb gedərəm... Olanlar haqda da heç kimə bir kəlmə də...
**Celika.** Eeee?
**Spanos.** Olanları da o dəqiqə unudaram... Səhv edirsən...
**Celika.** Səhv eləyirəm?
**Spanos.** Yəni... Elə demək istəmədim... Olub-keçən bir sıra şeylərin... Hər şeyi unudaq... Sönmüş odu qızışdırmayaq... Bu kilidləri aç. Çıxıb gedim. And içirəm ki, indiyə qədər olanları heç vaxt xatırlamaram... Hər şeyi unudaq.
**Celika.** Bu qədər asandır?
**Spanos.** Əlbəttə, asandır... Açarları at, kilidi açaq.
**Celika.** Açaq...

*(Celika yaxınlaşır. Açacaqmış kimi edir. Əslində, Spanos da inanır. Birdən əlindəki qədəhin içindəki içkini Spanosun üzünə səpir.)*

**Celika.** Özünü müdafiə edəcəksən, it!
**Spanos.** Necə?
**Celika.** Belə imkanı sən mənə verməmişdin, amma görürsən, mən sənə verirəm... Yalandır?
**Spanos.** Sən bunu şərtlə etmişdin.
**Celika.** Sən də mənim günahkar olduğuma inanmamışdın?
**Spanos.** Nəticədə buraxıldın... Mənim belə bir şansım var?
**Lilika.** Özünü müdafiə et. Elə bir vəziyyətdə niyə o cür davrandığını açıqla...
**Celika** *(əlindəki siqareti Spanosun ağzına uzadırmış kimi edir).* Çək görüm... Sən mənim qabağımda siqaret çəkəcək adamsan, hərif!? Belə demişdin, elə deyil? Sən mənim qabağımda siqaret çəkəcək adamsan, hərif?!
**Lilika.** Bacı...

**Celika.** İşığı söndür... Suallarıma qısa, qəti və düzgün cavablar verəcəksən. Adın nədir? Adın nədir?
**Spanos.** Bilirsən.
**Celika.** Əvvəlcədən bunu deyim ki, cavab verməməyin sənə heç nə verməyəcək. Tamamilə əksinə!.. Adın nədir?
**Spanos.** Adımı bilirsən.
**Celika.** Sən də mənim adımı bilirdin, de!
**Spanos.** Spanos.
**Celika.** Necə yaşın var?
**Spanos.** Sənin niyyətin nədir?
**Celika.** Kəs və cavablandır... Hə!..
**Spanos.** 45.
**Celika.** Evlisən?
**Spanos.** Hə, evliyəm...
**Celika.** Neçə uşağın var?
**Spanos.** Bir... Bir oğlum var...
**Celika.** Neçə yaşı var.
**Spanos.** 22.
**Celika.** Nə işlə məşğuldur?
**Spanos.** Hələ tələbədir... Yüksək səviyyədə təhsil alır.
**Celika.** Atan, anan?
**Spanos.** Ölüblər.
**Celika.** Atan nə işlə məşğul olurdu?
**Spanos.** Bəsdir daha!
**Celika.** Atan nə işlə məşğul olurdu?
**Spanos.** Çörək sexində işləyirdi.
**Celika.** Bəs anan?
**Spanos.** Evdar qadın idi.
**Celika.** Əvvəlcə hansı öldü?
**Spanos.** İndi bunun nə dəxli var?
**Celika.** Ona mən qərar verirəm... De!
**Spanos.** Burada oyun oynayırsan.
**Celika.** Deyəsən, vəziyyətini dərk eləmirsən.
**Spanos.** Mənasız suallar verirsən... Əvvəlcə hansı ölüb?
**Celika.** Mənim kim olduğumu sən də bilirdin. Amma yenə də bezmədən, usanmadan, yedirmədən, içirmədən, yatırmadan, günlərlə!.. Gecə boyu!..
**Spanos.** Söhbət rəsmi vəziyyət idi.
**Celika.** Bu, daha düzgün deyil? Üstəlik, qurbanla cəllad yer dəyişdiriblər... İstəyirsən, başlayaq...

**Spanos.** Nəyə?
**Celika.** Bundan 7 il qabaq bir mikroavtobus dolusu məmurla yaşadığımız binanı mühasirəyə aldınız... Bir hissəniz çöldə gözlədi, siz üç nəfər mənzilə- içəri soxuldunuz... Bodrumdakı mənzilin qapısını elə döyürdüz ki, qırırmış kimi... Əllərinizlə, ayaqlarınızla qapını təpikləyirdiniz.
**Spanos.** Əvvəlcə, zəngi çaldıq... Zənginiz işləmirdi.
**Celika.** Qapını açan yaşlı bir qadın idi... Əllərinizdə silahlar, pülemyotlar...
**Spanos.** Tədbirli olmaq məcburiyyətindəydik...
**Celika.** Sus... Bir azdan danışmaq növbəsi sənə çatacaq...
**Spanos.** Əllərimizdə bir dəstə çiçəklə gələ bilməzdik ki... Bir əməliyyat icra edirdik.
**Celika.** Şübhəsiz...
**Spanos.** Eləysə, niyə günahlandırırsan?
**Celika.** Hələ günahlandırmamışam... Təkcə vəziyyəti izah elədim... Əlinizdə silahlarınız yox idi?
**Spanos.** Olmağı lazım olduğu üçün varıydı...
**Celika.** Yaşlı qadının gözləri qorxu ilə açılmışdı...
**Spanos.** Ancaq yaşlı qadınlar qorxur? Qorxu hər insana aiddir. İçəridə nə ilə qarşılaşacağımız məlum deyildi ki... Biz də qorxurduq...
**Celika.** Onsuz da mənzil balaca idi. Bir otaq, bir dənə də salon. Pəncərələri də yuxarıda idi. Küçədən keçən adamların yalnız dizindən aşağısını görə bilərdik. Torpağın altında yaşayırdıq. Birimiz mətbəxin altını üstünə çevirəndə, o birimiz tualetə gedir, digərimiz çarpayının altını qarışdırırdıq. Biri yataq otağından zorla balaca bir qızı gətirirdi... Qız bapbalacaydı... Saçlarından tutub, o iri, pis əllərinlə bapbalaca qızı şillələdin...
**Spanos.** Yox! Qulağını dartmışam.
**Lilika.** Şilləlmisən... O qız, o balaca qız mən idim... *(Sükut)*
**Spanos.** Hə, hə, xatırladım... Bir gün əvvəldən yuxusuz idim və sən insanı hövsələdən çıxardana qədər dəhşətli səslə ağlayırdın...
**Celika.** Bapbalaca bir qızı döyəcək qədər qəddarsan.
**Spanos.** Elə vəziyyətə yalnız bir tərəfli, öz bucağından baxırsan... İndi daha yaxşı xatırladım... Balaca qızı gətirəndə, o dəqiqə yanına yaxınlaşdım.. Saçlarını tumarlamaq istədim ki, qorxmasın... Xatırla... Xatırla da... Sən neylədin? "Tfu!" eləyib, üzümə tüpürdün.
**Lilika.** Hə, elə oldu... Amma mətbəxə girib-çıxıb, bir dənə də şillə vurdun.
**Spanos.** Mətbəxə üzümü yumaq üçün girmişdim. Amma sular kəsilmişdi... Düzdür, üzümü dəsmalımla silmişdim, amma yumayanacan rahat olmamışdım. Salona girəndə də sən gəlmişdin...
**Celika.** Mənzilə yaxınlaşanda, başa düşmüşdüm ki, fövqəladə bir vəziyyət var...

Ətraf bir dəstə silahlı mülki şəxslər tərəfindən tutulmuşdu... Məhəllələr qorxa-qorxa pəncərələrdən, künclərdən baxırdılar... İçəriyə girdim. Birdən üstümə qaçdın. Şillə-təpik vurmağa başladın.
**Lilika.** Dayanmadan... "De!.. De!.. De!" deyirdin. Anam: "Kömək eləyin!.. Qızımı öldürürlər" deyib, qışqırırdı.
**Celika.** Onu susdurduz... Onsuz da yaman günlər idi... Heç kim heç kimə kömək edə bilmirdi... Nə deyəcəkdim?.. Anamı niyə susdurmuşduz?.. Bacım niyə ağlayırdı?.. Kitablar niyə havada uçurdu? Paltarlar niyə yerə atılmışdı?.. Zibil tənəkələri belə, boşaldılırdı... Hər yer bircə-bircə axtarılırdı, niyə?
– Niyə bu qədər çox kitabın var?
– Yemək kitabı nəyinə lazımdır?
– Telefonunuz olmadığı halda, niyə telefon kitabçanız var?
– Bu şəkli niyə burdan asmısız? Niyə? Niyə? Niyə?.. De!.. De!.. De!.. Nə deyəcəkdim?
**Spanos.** Dostunun ünvanını vermirdin...
**Celika.** Məmləkətinə getmişdi... Adam kimi soruşsaydınız, deyərdim... Amma üstümə elə hücum çəkmişdiniz ki, istəyirdim ki, onun başına bir iş gəlməsin...
**Spanos.** Onsuz da ünvanını axıra qədər vermədin... Versəydin, heç nə olmazdı...
**Celika.** Əvvəlcə, qandalladız... Sonra zorla çölə çıxartdınız... Və pəncərələrdən, pərdələrin arasından baxan məhəllə sakinlərinin bütün ağırlığını hiss etdirərək, maşına mindirdiniz... Sonra qorxunc günlərin, saatların, dəqiqələrin, saniyələrin, salisələrin gələcəyini hiss etdirərək... Onlar, o saniyələr bitmək bilmirdi... Artıq zaman dayanmışdı... Heç dayanmadan, ayı kimi dəyənəklə vururdular... Yumruqlar... Boş kisə kimisən... Jele kimisən...
– O oğraş oğluyla gündə neçə dəfə yatırsan?
– İndi hardadır?
– Onun yerini deyənə qədər səni altımıza salaq? Heyvan. Heyvan. Səni öldürə bilərdim...

*(Celika özünü itirib, Spanosun üstünə gedir. Spanos birdən qabağa doğru atılır. Celikanı tutur. Qısa bir mübahisə... Lilika silahın qəbzəsi ilə Spanosun başına vurur. Bacısını çəkir... Spanos yerə sərilib.)*

**Spanos.** Nə üçün? Niyə ələ vermədin? Əgər desəydin, bütün bunlar olmaz idi. Niyə? O, adi bir adam idi.
**Celika.** Xeyr! O, qeyri-adi oğlan idi... Mənə kasıblığın alın yazısı olmadığını öyrətmişdi. *(İdeallaşdırır)* Onu sevirdim... Sevilməyəsi adam deyildi ki... Optimist idi. Bir gün hər şeyin yoluna düşəcəyinə elə inanırdı ki... İnanırdı ki, ətrafındakıları... Sonra bir gün yanıma bir nəfər gətirdiniz... Danışa bilmirdi... Kəkələməyə

başlamışdı... Mənə dediniz ki, o, əriyir, bitir, insanlıqdan yavaş-yavaş çıxır... Bir gün də gəlib dediniz ki, imtina edib.

**Spanos.** Özünü aşağı tulladı.

**Celika.** O, intihar edəsi adam deyildi...

**Spanos.** İntihar elədi! Birdən əlimizdən çıxıb, pəncərədn aşağı tullandı.

**Celika.** Sənin göz qapaqlarını yorğan iynəsilə tikim? Ya dilini qopardım? Yoxsa, cinsiyyətini kəsim? Balaca idim... Nənəm nağıllar danışırdı... Hər nağılın axırında yaxşılar pisləri məğlub edirdi... *(Sükut)* Sonra qabağıma kağızlar qoymağa başladınız... İmzalamırdım. Heç kimi öldürməmişdim... Bir sıra gizli təşkilatlarla əlaqəm yox idi. Qanunsuz işlərlə məşğul olmamışdım... Məni soyundurdunuz...

**Spanos.** Növbə ilə?

**Celika.** Tamamilə çılpaq...

**Spanos.** Əlini soxub bax...

**Celika.** Üstünə qaytardım.

**Spanos.** Zopalayıb, sınaqdan keçir.

**Celika.** Elə bil, bədənim yarılırdı. Göbəyimin üstündə tonlarla ağırlıq daşıyırdım... Dünyanın ən iti uclu dəmirini göbəyimə soxurdular.

**Spanos.** Əslində, heç nə soxulmurdu. Gözlərin bağlı olduğu üçün elə zənn edirdin.

**Celika.** Az qalırdı öləm... Sonra hər şey dayanırdı.

**Spanos.** Başının üstündə həkim var idi.

**Celika.** Sonra təzədən başlayırdı... Dişlərimin çatlayıb qırıldığını hiss edirdim. Nə isə bir aləti bədənimin hər tərəfində gəzdirirdilər. Bir gün anamı yanıma gətirdiniz... Qadına nə isə olmuşdu... Qocalmışdı? Nə isə olmuşdu... Elə bil, balacalaşmışdı, nə idi... Bəlkə də, xırdalanmışdı... Yumaq kimi... Gəbərmişlər! Buraxın onu! Buraxın! *(Sükut)* Saat neçəydi? Hansı gün idi?.. Ölüm bu idi? İşəyirdim... Sidik və yanıq ətin iyindən burnunuzu tutduğunuzu deyirdiniz. Qaytarırdım, yerləri mənə təmizlədirdiniz... Bir sıra məxfi təşkilatlara qoşulurdum... Divarlara "Lənətə gəlsin Cunta" yazırdım... Patakosun kürsüsünə bombalar yerləşdirirdim... Bir sıra sui-qəsdlər təşkil edirdim... Vətənsevər Cəbhənin jurnalını çıxartdırırdım... Yadımdan çıxan ünvanlara yollayırdım.

**Lilika.** Bəsdir, bacı! Daha özünü yorma...

**Celika.** Sonra bir gün məni bir nəfərin qabağına çıxartdılar. Ona dediklərimin, imzaladıqlarımın hamısının yalan olduğunu hayqırdım... Hər şey təzədən başladı... Daha əlinizdən xilas ola bilməzdim. İllərmi keçmişdi, fikirləşməyi unutmuşdum. Sonra bir gün gözlərimi örtən parça aşağı sürüşdü... Səni gördüm, Spanos, səni!.. Göz-gözə gəldik... Gözlərimi təzədən bağladınız...

**Spanos.** Başqa neyləyə bilərdik?

**Celika.** Amma unuda bilməzdim, gözlərini unuda bilməzdim... Gözlərini, gözlərini unuda bilməzdim... Bir hücrəyə tulladınız... Daha heç nə edilmirdi... Bir gün ağ xələtlilər gəldilər... İynələr vurdular... Ağlayırdım, lakin göz yaşlarım axmırdı... Gözbəbəklərim qurumuşdu... Dedilər, qorxma... Daha heç nə olmayacaq... Daha heç nə olmayacaq... Daha heç nə olmayacaq... *(Sükut)* Günahkar olmadığım aydın olmuşdu... Xəstəxanalarda yatdım... Həmişə sənin gözlərini axtarırdım... Saçlarım tökülürdü. Gecə yuxularımda elə hey sənin gözlərini görürdüm. Soyunub, yuyuna bilmirdim, bədənim yanıb xalçalara dönmüşdü. Amma hər yerdə sənin gözlərin var idi. Döl yatağımdan qan gəlirdi. Otura bilmirdim, gəzə bilmirdim... Amma hər yerdə sənin gözlərini görürdüm... Hələ burdan bir xilas olum... Səni tapacaqdım... Böyük həyatə çıxdım. Evimə gəldim... Səni vurub öldürmək üçün heç bir çətinlik yox idi... Mən çətini seçdim, Spanos... Budur, artıq əlimdəsən... 7 il sonra da olsa, əlimdəsən... Hə, Spanos!
**Spanos.** Hər şeyə öz nəzərinlə baxırsan.
**Lilika.** Sən də öz nəzərinə əsasən, başa sal.
**Spanos.** Heç səmimiyyətlə qulaq asacağına da inanmıram. Çünki bacın qərarlıdır... Qərarını 7 il qabaq verib... Bir gecədə dəyişdirəcəyəm? Düşünmürəm... Bir dəfə məsələyə lap əvvəldən nəzər yetirmək lazımdır. 1967-dən qabaq ölkə nə vəziyyətdə idi? Hər yerdə tətil, tətil, tətil... Avtobuslarda tətil... Zavodlarda tətil... Məktəblərdə tətil... Mal təhlükəsizliyi yox... Can təhlükəsizliyi yox... Yalandır? Şagirdlər oxumağın daşını atıb, küçələrdə ya bir-birləri ilə, ya da mühafizəçilərlə mübahisə edirdilər. Bu, belə gedə bilməzdi... Və gözlənilən oldu, bizimkilər idarəçiliyi öhdələrinə götürdülər... Tətillər bıçaq kimi kəsildi... Küçələrdə mübarizə qurtardı. Şagirdlər məktəblərinə, işçilər zavodlarına getdilər... Xalq işilə-gücülə məşğul olmağa başladı.
**Celika.** Artıq kəs!
**Spanos.** Mən sənə demədim?
**Lilika.** İcazə verməlisən, bacı...
**Celika.** Qısa elə...
**Spanos.** Qısası budur... Çevrilişdən sonra, "Yurdsevər Cəbhə" altında milli dirəniş təşkilatı qurulduğu xəbər verilmişdi... Sənin və dostunun adı da var idi... EDA-da vəzifə başındaydınız. Üstəlik, Lombrakis Gənclik Təşkilatının da üzvləri idiniz... Həbs olunmağınız üçün bizə göstəriş verdilər... Bax belə...
**Celika.** EDA və Lombrakis Gənclik Təşkilatı ilə əlaqədə olmaq qəbahətdir? Qanuni bir partiya idi və qanuni bir Gənclik Təşkilatı idi.
**Spanos.** Bunun haq-hesabını məndən soruşa bilməzsən... Bizə əmr verildi... Biz də bu əmri lazımınca yerinə yetirdik.
**Celika.** Sənə haqq qazandırmağımı istəyirsən?
**Spanos.** Məlumdur ki, haqq qazandırmayacaqsan. Amma özünü mənim yerimə

qoy.
**Celika.** Yəni elədiklərində, sənin də günahın olduğunu qəbul edirsən?
**Spanos.** Bizim də hisslərimiz, bizim də düşüncələrimiz var. Amma biz ümumilikdə neyləyirlərsə, nə olunması istənilirsə, onu tətbiq etdik... Nə az, nə çox...
**Celika.** Bir gün oğlunla səni aparırlar. Başınıza təsəvvüredilməz işlər gəlir... Sonra da aydın olur ki, günahsızsınız... Nə müqabilindəsə, xəbərdarlıq alırsınız... Sənə cavab olaraq: "Mən əmr quluyam" deyilməsi kifayətdir?
**Spanos.** Demirəm ki, tamamilə haqsızsan.
**Celika.** İndi bunlar qalsın bir yana... Deməli, belə... Oyun başlayır... Böyük oyun başlayır... Zəngimi kim gözləyir, bilirsən?
**Spanos.** Kim?
**Celika.** Əlləri, ayaqları bağlı uşağın yanında keşik çəkən dostum.
**Spanos.** Kimdir o uşaq?
**Celika.** Mən səndən soruşuram... Həyatının mənası... Yeganə varlığın... Kimdir?
**Spanos.** Oğlum? Bu işdə onun heç bir günahı yoxdur ki...
**Celika.** Deməli, artıq sən öz günahlarlığını təsdiq edirəsən.
**Spanos.** Oğlum deyil, oğlum deyil, elə deyil?
**Celika.** Sualıma cavab vermədin...
**Spanos.** Mənə neyləyirsən, elə... O deyil, hə?
**Celika.** Alçaq hərif!..
**Spanos.** Sənə və sənin kimilərinə... *(Xilas olmağa çalışır)* Lənət olsun! Lənət olsun!
**Celika.** Bitir, bitir...
**Spanos.** Ölkəm üçüm elədim... *(Mülayim)* Sizi aldatmışdılar.
**Celika.** Hələ də axmaq-axmaq danışırsan... Axırda buraxdınız... Təqsirsiz hesab olunduğum üçün buraxdınız.
**Spanos.** Bu qədər pis ola bilməzsən. Oğlumu qaçıra bilməzsən.
**Celika.** Bir an mənim sizə görə günahkar olduğumu hesab edəcək... Deyək ki, müqavimətə qatılırdım.
**Spanos.** Oğlumu.
**Celika.** Mənə qulaq asmısansa...
**Spanos.** Necə qulaq asmaya bilərəm?
**Celika.** Deyək ki, yurdsevən cəbhə üçün çalışırdım. Başa düşürsən?
**Spanos.** Başa düşürəm.
**Celika.** Vəzifən nədir?
**Spanos.** Necə yəni?
**Celika.** Nəyin müqabilində dövlətdən pul alırsan? De! Öz vəzifəni belə, bilmirsən.
**Spanos.** Bilirəm.

**Celika.** Onda cavab ver.

**Spanos.** Vəzifəm... Vəzifəm... Rifahı qorumaqdır...

**Lilika.** Düşünürsən ki, sənə təslim olunan insanlara əziyyət etməklə rifahı qoruyacaqsan? Əgər rifah zülm edərək qorunsaydı, insanlar canavarlaşardı... Və ən axırıncı nümunəsi Nazizm çökməzdi.

**Spanos.** Qanunları tapdamamaq məcburiyyətindəyəm.

**Lilika.** Qanunlarınızda günahkara və ya müttəhimə əziyyət edilməsilə bağlı bir qərar var?

**Spanos.** Başa düşmədim.

**Celika.** Başa düşürsən... Başa düşürsən, amma sərf eləmir.

**Spanos.** Oğlumu...

**Celika.** Belə bir qərar var?

**Spanos.** Yoxdur... Amma bunlar çoxdan tətbiq olunur.

**Lilika.** Çoxdan tətbiq olunması sənin xilas olmağına bəs edər? Sənin vəzifən müttəhimləri sağ-salamat məhkəmənin qarşısına çıxartmaqdır... Qanunlarımızda belə yazılıb. Bəs, sən neylədin?

**Celika.** Öz qanunlarını belə, tapdalayırsan.

**Spanos.** Oğlumun günahı yoxdur... O, dərslərindən başqa heç nə ilə maraqlanmır. Heç nəyə qarışan deyil.

**Celika.** Heç nəyə qarışmayan insan qarışıqlığın da məsuliyyətini daşıyır.

**Spanos.** Onu necə tutdunuz?

**Celika.** Sualıma cavab vermədin.

**Spanos.** Hələ çox cavandır.

**Celika.** Doğrudan? Mən də cavan idim... Yaşamaq, sevmək, sevdiyim adamla birlikdə olmaq haqqım var idi. Hamı kimi... Amma artıq bunlara imkan olmadı. Qadınlığımı da əlimdən aldın... *(Celika mətbəxə keçir)*

**Spanos.** Onu hara aparmısınız? Anası gözləyirdi. Onun təqsiri nədir? De də. Onu buraxacaqsınız, hə? Nə olar, de də... Hə, de... Hə!..

*(Celika gəlir. Əlində uzun bir kabel var... Elə bil, bilə-bilə qarmaqarışıq hala salınıb.)*

**Spanos.** O nədir?

**Celika.** Görmürsən? Kabelin nəyə lazım olduğunu da sənə başa salmaq lazımdır? Bu işlərdə mütəxəssissən.

**Spanos.** Oğlumu buraxın... O günahsızdır.

**Celika.** Nişanlımın da günahı yox idi... Anamın da...

**Spanos.** Anana heç nə edilməyib... Yalan deyirsən...

**Celika.** Ona ən böyük işgəncəni verdin... Daha neyləyəcəkdin? Məni göstərmədin?

**Spanos.** Görmək istəyirdi... Yalvardı...
**Celika.** Gəzə bilmirdim... Skelet kimi olmuşdum...
**Spanos.** Dedi ki, beş dəqiqəlik də olsa, qızımı mənə göstər. Yalvardığına görə göstərdim.
**Celika.** Anam ağlayanda, gülürdün... Nə hala saldığınızı, hələ nə vəziyyətə sala biləcəyinizi sübut eləmək üçün məni ona göstərdin... Özünü onun yerinə qoymadın.
**Spanos.** Yalandır! Məndə də vicdan var.
**Celika** *(qəzəblə).* Ah, Xristof!.. Ah, Xristof!.. Hələ utanmaz-utanmaz vicdandan danışır... Bax, bax, yaxşı bax. Bax, bax, yaxşı bax, bax bu ələ... Zülm etməkdən zövq alırmış kimi... Qışqırda-qışqırda... Qaynar su ilə... Eynisini sənin oğluna eləsəm, adı vicdansızlıq olacaq?
**Spanos.** Yox, eləyə bilməzsən.
**Celika.** Niyə? İntiqamımı yalnız belə ala bilərəm.
**Spanos.** İntiqam! İntiqam! İntiqam!
**Celika.** Hə, intiqam! Sonra anam qəflətən öldü. Qızına olunanlara dözə bilmədi. Ürəyi tab gətirmədi... Onu sən öldürdün, sən!
**Spanos.** Oğlum günahsızdır.
**Celika.** Günahsız?
**Spanos.** And içirəm ki, günahsızdır. Heç səni tanımır da.
**Celika.** Mən də səni tanımırdım.
**Spanos.** O, bir qarışqanı belə, incitməyə qıymır.
**Celika.** Mən də eləydim.
**Spanos.** Yeganə günahı mənim oğlum olmağıdır.
**Celika.** Kifayət eləmir?
**Spanos.** Atasını o seçməyib ki...
**Celika.** Yəni deyirsən ki, "oğlumun atasını seçmək şansı olsaydı, mənim kimi adamı ata seçməzdi", hə? Oğlun mərddir. Yaxşı, qalsın... Mövzudan qaçmağa çalışma... Yoxsa, demək istəyirsən ki, o, sənin oğlun deyil?
**Spanos.** Nə olar, mənə qulaq as.
**Celika.** Mərd-mərdanə meydan oxumaq, heç olmasa, insanın qürurlu ölməyinə kömək edir. İşin axırında qürursuz getmək də var. Oğlunun bir otağa salındığını eşidəndə, əməlli-başlı cəsurlaşdın... Amma indi?
**Spanos.** Səni də ana doğmayıb? Vicdansız bir adam ola bilməzsən... Mənə haqlı olaraq əsəbləşirsən. Bax... Nə olar, bir atanın oğlundan ötrü yalvarmağını qürursuzluq kimi qəbul etmə... Neyləyəcəksən, mənə elə. Onu burax...
**Celika.** Yox! Bəraətsiz buraxmaq yoxdur. Hələ onu mühakimə eləməmişəm.
**Spanos.** Nə mühakimə?
**Celika.** Bu, birinci istintaqdır.Eynilə sənin kimilərin üsulu ilə olacaq bir istintaq...

Başa düşürsənmi?
**Spanos.** Ola bilməz.
**Celika.** Olar! Bir azdan daha yaxşı başa düşəcəksən.
**Spanos.** O, günahkar deyil.
**Celika.** Özün dedin ki, heç nəyə qarışmır. Bəs eləməz?
**Spanos.** Yerində oturub gözləyən minlərlə, milyonlarla adam var... Onda onlara da eyni əzabı yaşatmaq lazımdır.
**Celika.** Niyə sənə qarşı çıxmadı?
**Spanos.** Mənim haqqımda bildiyi yeganə şey mühafizədə işləməyim idi... Burax onu... Dözə bilməz... Əlində qalar, nə olar?
**Celika.** Daha ağır əzablara dözə bilsin deyə, oğlunu fiziki cəhətdən daha sağlam böyüdəydin. *(Dəstə yürüşü... Celika gəzişir... Maqnitafonu işə salır.)* Mən burda hansısa məsləyi yox, səni mühakimə edirəm. Panayotu xatırlayırsan? Mavi gözləri var idi... Saqqallı idi... Neçə dəfə eşitmişdim ki, sənə "Eləmə, Spanos!" deyirdi. Niyə sən onun kimi bir insan olmadın? Niyə işgəncəyə qarşı etiraz etmədin? Sənin ondan imtiyazın nə idi?
**Spanos.** Gözə ala bilməzdim.

*(Telefon uzun müddət çalır, sonra dayanır)*

**Celika.** Niyə sən də panayot qədər olmadın?
**Spanos.** Panayotu işdən uzaqlaşdırdılar... Uzun müddət dəlixanada qaldı... İşsiz qaldı...
**Celika.** Namuslu davrandığı üçün...
**Spanos.** Atam kasıb bir çörəkbişirən idi. Odun qabağında illərlə davam edən mübarizə... Sobanın qapağını aç, xəmiri kürəyə ver... Qapağını o dəqiqə ört. Alnından, bədənindən, qollarından sel kimi axan tər... Tərini dəsmalla sil... Od sönməsin... Odun atmaq yadından çıxmasın... O birisilə tez çıxarılmasa, yanıb-qovrular...
**Celika.** İşi bu idi.
**Spanos.** Atam məni yanına aparıb, işləməyə başlayanda, on yaşım var idi. Dostlarım küçələrdə top oynayanda, atılıb-düşəndə, mən odun qarşısında atama kömək eləməyə çalışırdım... Həftəlik də alırdım... Amma sonradan bildim ki, həftəliyimi müdir yox, atam verirmiş... Əsas olan işi öyrənməyim imiş. Aldığım həftəliyi də təzədən atam əlimdən alırdı... Yay tətillərim həmişə belə keçirdi.
**Celika.** Amma sənət sahibi olurdun.
**Spanos.** Qışda, məktəbdən sonrakı saatlarda yenə də çörək sexində idim. Kitablarımla, dəftərlərimlə birgə sexdə idim. Düz on il. Liseyi bitirdiyim il atam öldü... Anamla mən ortalıqda qaldıq. Allah tərəfi başımızı soxmağa evimiz var

idi. Yüksək təhsil? Tezliklə pul qazanmaq lazım idi... Əvvəlcə, pul qazanmaq lazımdır. Avaralanmaq mənim üçün imkansız idi... Patron məni çağırdı... Mənə dedi ki, atamın yerinə işə başlaya bilərəm.

**Celika.** Bax, gördün?!

**Spanos.** Eynilə atam kimi o odun qarşısında illərlə tərləyib, sonra da ölüb gedəcəkdim. Başqa seçim yox idi. Amma seçim yoxdur deyəndə, həyatın təsadüflərini nəzərə almamışam.Bir komissar var idi. Çörəklərin ən yaxşı bişənini onun üçün ayırırdım. Get-gedə mənimlə danışmağa da başlamışdı. İşimi sevmədiyimi başa düşmüşdü. Mənimlə maraqlandı və polis olmağımı təmin etdi.

**Celika.** Kasıb ailənin övladıydın, amma silahını özün kimilərinə tuşladın.

**Spanos.** Təzədən çörək sexinə qayıda bilməzdim... Qayıda bilməzdim sexə... Düşünmürəm ki, məni başa düşürsən... Amma mənə neyləyəcəksənsə, elə.

**Celika.** Yəni tutduğun insanlara qan uddurmağın sobada çörək bişirməyindən daha asandır, hə?

**Spanos.** Oğlumu burax... O, heyvanları belə, sevir. Evdə it saxlayır. İnsanları da çox sevir... Safdır, bütün uşaqlar kimi... Əslində, uşaqdır... Uşaq!.. Elə iri olduğuna baxma... Balacadır o.

**Celika.** Niyə öz uşaqlarınıza göstərdiyiniz nəvazişi, rəhmi başqalarının uşaqlarına göstərmirsiniz. Niyə?

*(Bayırdan yaxınlaşan maşının səsi eşidilir. Maşın dayanır...)*

**Lilika.** Bu nədir, bacı?

**Celika.** Dayan!.. *(İşığı söndürür. Pərdəni aralayır.)* Polis maşını...

**Lilika.** İndi nə olacaq? Maşına baxırlar... Qorxuram, bacı!..

**Spanos.** Kömək edin! Kömək edin!

**Celika.** Eee... Sakit ol! Sus!

**Spanos.** Xilas edin məni! Kömək edin!

**Lilika.** Maşına mindilər...

**Spanos.** Kömək edin!

*(Hərəkət edən maşın səsi)*

**Lilika.** Gedirlər.

**Spanos** *(vecsiz).* Yenə gedirlər...

**Lilika.** Təzədən gəlməzlər, hə?

**Celika.** Alçaq hərif!

**Spanos.** Oğlumu buraxacaqsan, hə? Keçmişi bir də bura qaytarma.

**Celika.** Keçmişi qaytamamaq üçün əlləşirəm.
**Spanos.** Artıq neyləyəcəyini bilirəm.
**Celika.** Bu gecə sən niyə bura gəldin? Bacımla yata bilmək ümidilə, hə?
**Spanos.** Burax oğlumu... Burax oğlumu!.. *(Sürünür, yeri yumruqlayır)* Neyləyirsən, mənə elə.
**Celika.** Heç kim səsini eşitməyəcək... Bir az qürurlu ol... Mən belə hərəkət eləməmişdim.
**Spanos.** Üşüyürəm...
**Celika.** Bir azdan isinəcəksən... Bir də üşüməyəcəksən... Tərləməyəcəksən... Gülməyəcəksən... Acmayacaqsan... Susamayacaqsan...
**Spanos** *(Lilikaya).* Heç nə edə bilməzsən? Səni rədd eləməz. De ki, istəmirəm, eləmə... Məni çox sevdiyini deyirdin.
**Celika.** Yalvarmaqla heç nəyi dəyişdirə bilməzsən. Oğlunu da mən tutdurmuşam. Bacımın sənə oynadığı oyunla. Anamın çəkdiyi əzabları hiss edəsən deyə, bir otağa saldıq. İntiqamımı ancaq sənin də, oğlunun da eyni işgəncələri yaşamağınızdan ala biləcəyəm. Eynən belə kabel idi, hə?
**Spanos.** Mən eləməmişəm... And içirəm ki, mən eləməmişəm. Lambrou edib. Elektrik insana əzab verir... De... Əngəl ol... Oğlun əzab çəkəcək... Öləcək. Mane ol...
**Lilika.** Bunları niyə elədiniz?
**Spanos.** Artıq olan olub... Yalnız sən mane ola bilərsən... Noolar...
**Lilika.** Bacım qərarlıdır.
**Spanos.** Biz onları öldürmək üçün yox... Sadəcə, peşman olsunlar deyə... Əl çəkdirmək üçün... Danışdırmaq üçün eləmişik... Hə, hə, danışdırmaq üçün etdik...
**Lilika.** Amma elədikləriniz qanuni deyildi. Nə adla edirsiniz, edin, düzgün deyildi... Otuz min nəfərə işgəncə, əzab verməyin açıqlaması ola bilməz.
**Celika.** Həmişə deyirdin ki, çox təsirlidir... Bir vedrə su və cərəyan... Zəngimi gözləyirlər...
**Spanos.** Ayaqlarının altını öpüm... Zəng eləmə... Mən atayam, başa düşürsən, ata.
**Celika.** Hər şeyi bir dəfəyə həll edəcəklər... *(Telefonun dəstəyini götürür.)*
**Spanos.** Bu dərdə dözə bilmərəm.
**Celika.** Anam da dözə bilmədi.
**Spanos.** Sən də ana olacaqsan... Bir gün ana olanda, nə demək istədiyimi başa düşəcəksən.
**Celika.** Sus daha. Sus! Sənə qulaq asdıracağam. Oğlunun səsini eşidəcəksən.
**Spanos.** Sənə heç kim mane ola bilməz... Səndən bircə istəyim var... Ölümə tərəf gedənlərin arzusunu yerinə yetirirlər... Səndən bir şey istəyirəm... Bircə şey...

**Celika.** De!
**Spanos.** İndi ananı daha yaxşı başa düşürəm.
**Celika.** Uzatma!
**Spanos.** Bəs, deyirdiz, fikirləşdikləriniz bütün insanlar üçündür. Bəs, bütün səyləriniz birlik, sülh üçün idi.
**Celika.** Eeee!.. *(Telefonda yığmağa başlayır.)*
**Spanos.** Dayan! Yalvarıram, dayan! Eləmə! Bu sonuncu arzumu yerinə yetir. Nə olar!..
**Celika.** Demirsən axı... De! *(Dəstəyi yerinə qoyur.)*
**Spanos.** Oğlumun yoxluğuna dözə bilmərəm... Əvvəlcə... Əvvəlcə, məni öldür... Əvvəlcə, məni öldür...

*(Sükut. Celika Spanosa baxır. Dəstəyi təzədən qaldırır.)*

**Lilika** *(qışqırır).* Bəsdir! Artıq bu oyun qurtarsın...
**Celika.** Sən nə danışırsan?
**Lilika.** Oğlunu tutmayıblar... Başa düşürsən? Oğlun sərbəstdir...
**Spanos.** Aman Allah! Deməli, tutmayıblar... Bu, doğrudur?
**Celika.** Oyunu pozdun... *(Bacısını silkələyir)* Oyunu pozdun... Oyunu pozdun...
**Lilika** *(bacısını itələyir).* Sənin bundan nə fərqin var? O, bir ağ balinadırsa, sən də nizə balığısan... Elə bilirsən ki, bütün pisliklərin mənbəyi budur.
**Celika.** İndi bu günahsızdır?
**Lilika.** Bütövlükdə günah onda deyil... O, sadəcə, öz iyrənc vəzifəsini yerinə yetirən balaca bir hissədir.
**Celika.** Bunu məhv eləməyim?
**Lilika.** Öldürsən, nəyi dəyişdirəcəksən ki? Yerinə o saat təzəsini qoyacaqlar.
**Celika.** Sərbəst buraxım?
**Spanos.** Çıxıb gedərəm. Hər şeyi də unudaram. Uşağımın canına and içirəm. Hər şeyi unudaram.
**Lilika.** Küçəyə çıxmaq qadağası başlayacaq.
**Celika.** Buraxım, çıxıb getsin, hə? İstəyirsən ki, elədikləri cavabsız qalsın? De görək.
**Lilika.** Elədikləri cavabsız qalmasın. Lakin bu da həll yolu deyil.
**Celika.** Eləysə, həlli yolunu de.
**Lilika.** Bir çox ölkədə bunları mühakimə edib, həbs elədilər.
**Celika.** Bunları mühakimə edəcək bir qurum var? Var? De də?
**Lilika.** ... *(Cavab vermir)*
**Celika** *(silahi cəld götürür).* Üzünü çevir! Tez çevir deyirəm! Çevril! Çevril!

*(Spanos kürəyini Celikaya çevirir, çökür. Celika Spanosa yaxınlaşır, silahı ona yönəldir, peysərinə söykəyir.)*

**Lilika.** Bacı!

*(Fotoşəkil kimi qalırlar.)*

**SON**

**1980, Ankara**

***Tərcümə edən: ELVİN NURİ***

***Tərcümə tarixi: 25.IV.2019 – 11.V.2019 (Bakı)***